**Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzinin**

**2026-cı ilin birinci yarımili üzrə fəaliyyətinə dair**

# HESABAT

Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 19 may tarixli 1685 nömrəli Fərmanı ilə yaradılmış Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzi (bundan sonra — Mərkəz) 2026-cı ilin birinci yarımilində də Nizamnaməsinə müvafiq olaraq normativ hüquqi aktların keyfiyyətinin artırılması, dövlət orqanları (qurumları) əməkdaşlarının hüquq normalarının tətbiqi sahəsində bilik, bacarıq və səriştələrinin inkişaf etdirilməsi, hüquqi maarifləndirmə, hüquqi ekspertizanın aparılması və bunlarla bağlı işlərin səmərəli əlaqələndirilməsi sahəsində fəaliyyətini uğurla davam etdirmişdir.

*Mərkəzin fəaliyyətinin təşkili üzrə*

2026-cı ilin birinci yarımilində Mərkəzin fəaliyyətinin səmərəli təşkili məqsədilə bir sıra tədbirlər görülmüş, o cümlədən yaranmış vakansiyalar üzrə kadrların komplektləşdirilməsi işi aparılmışdır. Belə ki, hesabat dövrü ərzində Mərkəzdə hüquqşünas ixtisası üzrə mövcud vakansiyalarla bağlı müvafiq namizədlərlə müsahibələr aparılmış və iki yeni hüquqşünas əməkdaşın işə qəbulu təmin edilmişdir. Bundan başqa Mərkəzin texniki heyətindən bir əməkdaş öz xahişi ilə tutduğu vəzifədən azad edilmiş, onun yerinə yeni əməkdaş müvafiq vəzifəyə təyin olunmuşdur.

Hesabat dövründə Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 16 yanvar tarixli 287 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında Rəqəmsal İnkişaf Konsepsiyası”nda, həmçinin Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 27 fevral tarixli 953 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026−2028-ci illər üçün Fəaliyyət Planı”nda nəzərdə tutulmuş müvafiq tapşırıqlara uyğun olaraq, Mərkəzdə rəqəmsal inkişaf, süni intellekt və kibertəhlükəsizlik məsələlərinin əlaqələndirilməsi məqsədilə Mərkəzin İcraçı direktorunun müvafiq əmri ilə İcraçı direktorun müavini məsul şəxs müəyyən edilmişdir.

Eyni zamanda, sözügedən Konsepsiyanın, habelə Fəaliyyət Planının icrası çərçivəsində Mərkəzin iki fəaliyyət istiqaməti üzrə – hüquqi ekspertiza fəaliyyətinin və əsaslandırma sənədlərinin hazırlanması prosesinin rəqəmsallaşdırılması ilə bağlı tədbirlərin görülməsinə başlanılmışdır. Bununla yanaşı, qeyd olunan sənədlərdə Mərkəzin əsas və digər icraçı qismində müəyyən edildiyi digər tədbirlərin icrası istiqamətində də işlər görülmüşdür.

Hesabat dövründə hüquqi aktlardan irəli gələn digər tapşırıqların icrası da Mərkəz tərəfindən mütəmadi olaraq təmin edilmiş və müvafiq hesabatlar aidiyyəti üzrə dövlət orqanlarına (qurumlarına) təqdim edilmişdir.

Hesabat dövründə, həmçinin Mərkəzin fəaliyyətinin təşkili məqsədilə "Dövlət satınalmaları haqqında" Qanuna uyğun olaraq, Mərkəz tərəfindən müxtəlif satınalma metodlarından istifadə edilməklə 14 satınalma həyata keçirilmişdir.

*Hüquqi ekspertiza və hüquqi aktların hazırlanması sahəsində görülmüş işlər üzrə*

Hesabat dövrü ərzində Mərkəzin işçi heyəti Nizamnaməsi ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq normativ hüquqi aktların layihələrinin hazırlanması və hüquqi ekspertizasının aparılmasında iştirak etmişdir. Aparılmış hüquqi ekspertiza çərçivəsində Mərkəzə təqdim edilmiş müxtəlif hüquqi aktların layihələrinin "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununun tələblərinə uyğunlaşdırılması, qüvvədə olan qanunvericilik aktları ilə ziddiyyətlərin aradan qaldırılması, habelə qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla təkmilləşdirilməsi məqsədilə rəylərin verilməsi təmin olunmuşdur.

Belə ki, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi və Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin müraciəti əsasında Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində yaradılan süni torpaq sahələrində kazino oyunlarının təşkili və keçirilməsinin hüquqi tənzimlənməsini təmin etmək məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarları ilə təsdiq edilməsi nəzərdə tutulan "Kazino oyunlarının təşkili və keçirilməsi üçün xüsusi ayrılan yerlərə dair tələblər", "Kazino oyunlarının təşkili və keçirilməsi Qaydası", "Kazino oyunlarının təşkili üçün lisenziya verilməsinin şərtləri (tələbləri)" və "Kazino oyunlarının operatoruna dair tələblər"in hüquqi ekspertizasının həyata keçirilməsi üzrə işlər yekunlaşdırılaraq sifarişçiyə təqdim edilmişdir.

Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin müraciətinə əsasən "Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində dəyişiklik edilməsi haqqında" qanun layihəsinin və fərman layihələrinin, eləcə də Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin müraciətinə əsasən "Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində dəyişiklik edilməsi haqqında" qanun layihəsinin hüquqi ekspertizası həyata keçirilərək sifarişçiyə təqdim edilmişdir.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının müraciəti əsasında "Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "Həmkarlar ittifaqları haqqında" və "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" qanun layihəsi və bundan irəli gələn digər sənədlərin layihələri sifarişçiyə təqdim edildikdən sonra həmin layihələr aidiyyəti dövlət orqanları (qurumları) ilə razılaşdırılması üçün sifarişçi tərəfindən Azərbaycan Respublikası Nazirlər Kabinetinə təqdim olunmuşdur. Hazırda qeyd olunan layihələrə dair aidiyyəti dövlət orqanlarından (qurumlarından) daxil olmuş müvafiq rəylər təhlil edilərək layihələrin təkmilləşdirilməsi üzrə işlər davam etdirilir. Eyni zamanda Mərkəz

tərəfindən bundan əvvəl tərtib edilmiş və sifarişçiyə təqdim edilmiş Konfederasiyanın yeni Nizamnaməsi isə Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının Qurultayında təsdiq olunmuşdur.[1]

Hesabat dövründə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin sifarişi əsasında Nazirliyin "Vahid Səhiyyə" informasiya sisteminin tərkibində "Tibbi rəqəmsal əkiz" altsisteminin yaradılması ilə bağlı "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində və "Əhalinin sağlamlığının qorunması haqqında" Qanunda dəyişiklik edilməsi barədə" qanun layihəsi və əlaqəli normativ hüquqi akt layihələri hazırlanaraq sifarişçiyə təhvil verilmişdir.

Bundan başqa Respublika Gigiyena və Epidemiologiya Mərkəzi ilə bağlanmış müqavilə çərçivəsində səhiyyə sahəsində idarəetmə, tənzimləmə və nəzarət mexanizmlərinin təkmilləşdirilməsi və səhiyyə sisteminə daxil olan bir sıra qurumların fəaliyyətinin optimallaşdırılması ilə əlaqədar bir sıra normativ hüquqi akt layihələrinin hazırlanması ilə bağlı işlər davam etdirilmişdir. Belə ki, bağlanmış müqavilə çərçivəsində "Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi yanında Dövlət Sanitariya və Epidemiologiya Nəzarəti Xidmətinin fəaliyyətinin təmin olunması haqqında" fərman layihəsi hazırlanmış, "Səhiyyə sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" fərman layihəsinin razılaşdırılması prosesində aidiyyəti orqanlardan (qurumlardan) daxil olmuş rəylər əsasında layihənin təkmilləşdirilməsi aparılmış, habelə həmin fərman layihəsinin digər normativ hüquqi aktlarla uyğunlaşdırılması məqsədilə "Sanitariya-epidemioloji salamatlıq haqqında" Qanunda və digər aidiyyəti normativ hüquqi aktlarda dəyişiklik edilməsi ilə bağlı layihələr hazırlanaraq sifarişçiyə təqdim edilmişdir. Eyni zamanda V.Y.Axundov adına İctimai Səhiyyə İnstitutunun fəaliyyətinin təmin edilməsi ilə bağlı Səhiyyə Nazirliyi Kollegiyasının qərarı layihəsi, habelə sözügedən qurumların tabeliyindəki qurumların əsasnamələrinin (nizamnamələrinin) və onları təsdiq edəcək normativ hüquqi aktların layihələrinin və əlaqəli digər sənədlərin hazırlanması üzrə işlər davam etdirilir.

Bununla yanaşı, hazırda Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu ilə bağlanmış müqaviləyə uyğun olaraq, İnstitutun yenidən təşkili ilə əlaqədar hazırlanmış normativ hüquqi akt layihələrinin razılaşdırılması prosesində aidiyyəti orqanların (qurumların) verdiyi rəy və təkliflər əsasında müvafiq layihələrin və əlaqəli digər sənədlərin təkmilləşdirilməsi həyata keçirilir.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin müraciəti əsasında Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamı ilə təsdiq edilməsi nəzərdə tutulan "Ailə institutu – 2040: Azərbaycan Respublikasının Ailə Konsepsiyası" layihəsinin aidiyyəti dövlət orqanlarının (qurumlarının) rəy və təklifləri əsasında təkmilləşdirilməsi üzrə işlər görülür. Bundan başqa Komitə tərəfindən məqbul hesab edilən təkliflər əsasında

---

[1] https://ahik.org/storage/files/nizamname.pdf

“Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında” Qanunda dəyişiklik edilməsi ilə bağlı qanun layihəsinin hazırlanması üzrə işlər görülür.

Həmçinin Azərbaycan Qiymətləndiricilər Palatasının sifarişi ilə “Qiymətləndirmə fəaliyyəti haqqında” Qanunda təklif edilən dəyişikliklərin, bundan başqa Alman-Azərbaycan Xarici Ticarət Palatasının müraciəti əsasında onun Tikinti və İnfrastruktur İşçi Qrupu tərəfindən hazırlanmış mövqe sənədində müxtəlif normativ hüquqi aktlara təklif edilən dəyişikliklərin hüquqi ekspertizası üzrə işlər davam etdirilir.

Qeyd edilənlərdən başqa, Azərbaycan Respublikasının Diasporla iş üzrə Dövlət Komitəsinin sifarişi əsasında “Xaricdə yaşayan soydaşlar və diaspor təşkilatları haqqında” qanun layihəsinin Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin rəy və təklifləri əsasında təkmilləşdirilməsi üzrə işlər görülür.

Ümumilikdə, hesabat dövrü ərzində **2 qanun** layihəsinin, **2 fərman** layihəsinin (o cümlədən 2 fərmana dəyişiklik nəzərdə tutan 1 fərman layihəsi) və Nazirlər Kabinetinin **2 qərar** layihəsinin hüquqi ekspertizası həyata keçirilmişdir. Həmçinin, hesabat dövründə **2 qanun** layihəsi (o cümlədən 2 qanuna dəyişiklik nəzərdə tutan 1 qanun layihəsi), Azərbaycan Respublikası Prezidentinin **4 fərman** layihəsi (o cümlədən 4 fərmana dəyişiklik nəzərdə tutan 1 fərman layihəsi), Nazirlər Kabinetinin **1 qərar** layihəsi və **1 mərkəzi icra hakimiyyəti orqanının qərar** layihəsi hazırlanmışdır.







*Qanunvericilik təşəbbüsü qaydasında görülmüş işlər üzrə*

Mərkəzin təşəbbüsü ilə 2023-cü il 11 dekabr tarixində Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın tərkibində yaradılmış, Mərkəzin rəhbərlik etdiyi “Azərbaycan Respublikası Mülki Məcəlləsinin təkmilləşdirilməsi” işçi qrupu hesabat dövründə fəaliyyətini aktiv şəkildə davam etdirərək bir sıra tədbirlər həyata keçirmişdir.

Belə ki, 6 fevral 2026-cı il tarixində işçi qrupun 2026-cı il üzrə fəaliyyət planı təsdiq edilmiş, həmin plana uyğun olaraq işçi qrupun fəaliyyəti çərçivəsində Mülki Məcəllənin 4-cü fəsli (Hüquqi şəxslər) üzrə konsepsiya sənədinin hazırlanmasına başlanılmışdır. Bununla yanaşı, işçi qrupun daxilində aparılmış müzakirələr nəticəsində Mülki Məcəlləyə "Ticarət müəssisələri" ilə bağlı yeni 2-2-ci fəslin əlavə edilməsi məqsədəuyğun hesab edilmiş və hazırda həmin fəslin hazırlanması istiqamətində işlər davam etdirilir. Sözügedən fəsil üzrə işlər başa çatdırıldıqdan sonra həmin fəslə dair konsepsiya sənədinin Mərkəz tərəfindən maraqlı tərəflərə (Mülki Məcəllənin müvafiq müddəalarını tətbiq edən və ya onların tətbiqinə məruz qalan şəxslərə) və işçi qrupun üzvlərinə təqdim edilməsi, habelə onların iştirakı ilə müzakirələrin keçirilməsi nəzərdə tutulur.

Eyni zamanda qeyd edilməlidir ki, işçi qrupun fəaliyyəti çərçivəsində hazırlanmış Mülki Məcəllənin 1-ci (Mülki hüquq sahəsində qanunvericilik), 2-ci (Mülki hüquq və vəzifələr, onların müdafiəsi) və yeni 2-1-ci (Şəxsiyyət hüquqları) fəsillərinə dair konsepsiya sənədi əsasında "Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında" qanun layihəsi və digər əlaqəli sənədlər üzrə razılaşdırma prosesi zamanı dövlət orqanlarının (Ədliyyə və İqtisadiyyat nazirliklərinin) rəy və təkliflərinə dair mövqe sənədləri hazırlanaraq Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim edilmişdir.

*Mərkəz tərəfindən hazırlanmış hüquqi arayış və rəylər*

Hesabat dövründə dövlət orqanlarının (qurumlarının) müraciəti əsasında hüququn müxtəlif sahələri üzrə hüquqi tədqiqatların aparılması və rəylərin verilməsi sahəsində də işlərin görülməsi davam etdirilmişdir. Belə ki, Mərkəz tərəfindən **Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin** aşağıdakı müraciətləri ilə əlaqədar hüquqi rəylərin verilməsi təmin edilmişdir:

1) Azərbaycan Respublikası Əmək Məcəlləsinin 144-cü maddəsinin 2-ci və 3-cü hissələrinin Azərbaycan Respublikası Konstitusiyasının 25-ci maddəsinin I, III, IV və V hissələrinə, 37-ci maddəsinin I və II hissələrinə, 71-ci maddəsinin I, II, V və VI hissələrinə, 149-cu maddəsinin I və III hissələrinə uyğunluğunun yoxlanılmasına dair;

2) Məhkəmə qərarının preyudisiallığı prinsipi baxımından Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 53.1.7-ci, 139-cu maddələrinin Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 141.1.3-cü, 142-ci maddələri və Azərbaycan Respublikası Konstitusiyasının 125-ci maddəsinin VII hissəsi ilə əlaqəli şərh edilməsinə dair;

3) Azərbaycan Respublikası Mülki Məcəlləsinin 329.1-ci və 337.1-ci maddələrinin həmin Məcəllənin Azərbaycan Respublikasının 31 may 2016-cı il tarixli 269-VQD nömrəli Qanunu ilə yeni redaksiyada verilmiş 740.2-ci maddəsi ilə (hazırda 739.2-ci maddə) əlaqəli şərh olunmasına dair;

4) Vətəndaş Möhsümov Məmməd Kazım oğlunun Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasının 30 yanvar 2025-ci il tarixli Qərarından Konstitusiya Məhkəməsinə şikayəti ilə bağlı;

5) Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 148.6-cı və 447.2-ci maddələrinin Azərbaycan Respublikası Konstitusiyasının 28-ci, 60-cı maddələri və "İnsan hüquqları və əsas azadlıqların müdafiəsi haqqında" Avropa Konvensiyasının 5-ci maddəsi ilə əlaqəli şərh edilməsinə dair;

6) "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikası Qanununun 13.8-ci maddəsinin tələblərinin həmin Qanunun məqsəd və prinsiplərinə, eləcə də Azərbaycan Respublikası Konstitusiyasının 12-ci maddəsinin I hissəsinə, 16-cı maddəsinin I hissəsinə, 35-ci maddəsinin VII hissəsinə və 149-cu maddəsinin I və III hissələrinə uyğunluğunun yoxlanılmasına dair;

7) Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 321-ci maddəsinin "Qeyd" hissəsinin Azərbaycan Respublikası Konstitusiyasının 76-cı maddəsinin I hissəsi baxımından həmin Məcəllənin 321-ci maddəsi, Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 606.3-cü maddəsi və 606-cı maddəsinin "Qeyd" hissəsinin 2-ci bəndi, habelə "Hərbi vəzifə və hərbi xidmət haqqında" Qanununun 45-ci maddəsi ilə əlaqəli şərh edilməsinə dair;

8) Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 79-cu maddəsinin Azərbaycan Respublikası Konstitusiyasının 80-ci maddəsi baxımından Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 41.2-ci və Cəzaların İcrası Məcəlləsinin 173-cü maddəsi ilə əlaqəli şərh edilməsinə dair;

9) Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 79.1-ci maddəsinin Azərbaycan Respublikası Konstitusiyasının 25-ci maddəsinin I, III, IV və V hissələrinə, 71-ci maddəsinin I və II hissələrinə və 149-cu maddəsinin I və III hissələrinə uyğunluğunun yoxlanılmasına dair;

10) Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 122.2.3-cü və 449.3-cü maddələrinin Azərbaycan Respublikası Konstitusiyasının 60-cı maddəsinin IV hissəsi baxımından əlaqəli şərh edilməsinə dair;

11) Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 420-ci maddəsinin həmin Məcəllənin 65.1-ci, 142.1-ci və 397-ci maddələri, xüsusilə 397.5-ci maddənin "apellyasiya şikayətinin və ya apellyasiya protestinin baxışının nəticələri buna əsas verərsə" müddəası ilə, Azərbaycan Respublikası Konstitusiyasının 132-ci maddəsinin I hissəsi ilə əlaqəli şərh edilməsinə dair;

12) Azərbaycan Respublikası Mülki Məcəlləsinin 140-cı, 181-ci, 182-ci, 314-cü və 650-ci maddələrinin şərh edilməsinə dair;

13) Azərbaycan Respublikası İnzibati Prosessual Məcəlləsinin 2.2.1-ci maddəsinin və Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 449.3.3-cü maddəsinin Azərbaycan Respublikası Konstitusiyasının 60-cı maddəsi və "İnsan hüquqları və əsas azadlıqların müdafiəsi haqqında" Avropa Konvensiyasının 6-cı maddəsi ilə əlaqəli şəkildə şərh edilməsinə dair;

14) Azərbaycan Respublikası Konstitusiyasının 62-ci maddəsinin tələbləri baxımından Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 43.4-cü maddəsinin şərh edilməsinə dair;

15) Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 288.2-ci maddəsində nəzərdə tutulan "müdafiəçi" ifadəsinin mülki mühakimə icraatında iştirak edən vəkili də əhatə etməsinin hüquqi müəyyənlik prinsipi tələbləri baxımından şərh edilməsinə dair.

Mərkəz tərəfindən hazırlanmış **digər hüquqi sənədlər** (arayış, mülahizə, rəy):

1) Azərbaycan Respublikası Ali Məhkəməsinin müraciətinə əsasən "Məhkəmələr tərəfindən mübahisələrə baxılarkən inzibati praktikada bərabər yanaşma və etimad hüququnun qorunması prinsiplərinin tətbiqi məsələləri"nə dair mülahizələr;

2) "Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında" qanun layihəsinə dair Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin rəy və təklifləri ilə bağlı arayış;

3) "Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında" qanun layihəsinə dair Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin rəy və təklifləri ilə bağlı arayış;

4) Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin müraciətinə əsasən "Səhiyyə sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin fərman layihəsinə dair aidiyyəti dövlət orqanlarının (qurumlarının) təklifləri ilə bağlı arayış;

5) Azərbaycan Respublikası Energetika Nazirliyinin tabeliyində Enerji Məsələlərini Tənzimləmə Agentliyinin müraciətinə əsasən Agentlik tərəfindən Enerji effektivliyi fondunun vəsaiti hesabına pilot layihələrin maliyyələşdirilməsi və Enerji effektivliyi fondunun gəlirlərinin vergidən azad olunması məsələləri ilə əlaqədar hüquqi rəy.

Ümumilikdə, hesabat dövrü ərzində müxtəlif dövlət orqanlarının (qurumlarının) müraciətinə əsasən **20** arayış və hüquqi rəy hazırlanaraq aidiyyəti üzrə təqdim edilmişdir.

*<u>Qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı təkliflər</u>*

Mərkəz tərəfindən hazırlanmış qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı **təkliflər**:

1) Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin müraciətinə əsasən mikro, kiçik və orta sahibkarlıq subyektlərinə, ixracatçılara və investorlara dövlət orqanları (qurumları) tərəfindən göstərilən xidmətlərin mərhələli şəkildə özəl sektor subyektləri tərəfindən həyata keçirilməsi mexanizmləri ilə bağlı təkliflər;

2) Mərkəzin təşəbbüsü ilə hazırlanmış və Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə təqdim edilmiş Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 30 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan edilməsi ilə bağlı Tədbirlər Planı"nın 8-ci hissəsi ilə əlaqədar şəhərlərdə iqlim dəyişikliyinin təsirlərinin azaldılması

məqsədilə “yaşıl tikinti” və “yaşıl bina” yanaşmaları nəzərə alınmaqla şəhərsalma və tikinti qanunvericiliyinin təkmilləşdirilməsi ilə bağlı təkliflər;

3) Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sifarişi ilə “Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında” Qanunda dəyişiklik edilməsi barədə” qanun layihəsinin və həmin dəyişikliklərdən irəli gələn əlaqəli normativ hüquqi aktların hazırlanması ilə əlaqədar sözügedən qanunun təkmilləşdirilməsinə dair təkliflər.

Ümumilikdə, hesabat dövrü ərzində Mərkəz tərəfindən qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı **3** təklif hazırlanaraq aidiyyəti üzrə təqdim edilmişdir.

*Normayaratma və hüquq normalarının tətbiqi sahəsindəki təlimlər üzrə*

Hesabat dövrü ərzində dövlət orqanları (qurumları) üçün normayaratma fəaliyyəti və hüquq normalarının tətbiqi sahəsində təlimlərin səmərəliliyinin artırılması istiqamətində işlər aparılmışdır.



Belə ki, Mərkəz tərəfindən 2026-cı ilin birinci yarımilində Mərkəzin Nizamnaməsinin 3.1.10-cu və 3.1.11-ci yarımbəndlərinə müvafiq olaraq dövlət orqanlarının (qurumlarının) hüquq sahəsində fəaliyyət göstərən əməkdaşlarının hüquqi biliklərinin və təcrübələrinin artırılması üçün normayaratma fəaliyyəti və hüquq normalarının tətbiqi sahəsində təlimlər keçirilmişdir. Cari ilin 1-5 iyun tarixlərində keçirilən təlimlərdə dövlət orqanlarından (qurumlarından) ümumilikdə **15** nümayəndə iştirak etmişdir.

Beş gün davam edən təlim zamanı normayaratma texnikası və normativ hüquqi akt layihəsinin hazırlanmasına dair ümumi və linqvistik tələblər, normativ hüquqi aktların ayrı-ayrı normalarının tərtib edilməsinin xüsusiyyətləri, həmin aktların qəbul edilməsi zərurətinin əsaslandırılması sənədinin hazırlanması ilə bağlı ətraflı məlumat verilmişdir. Eyni zamanda normativ hüquqi akt layihəsinin razılaşdırılması, təqdim edilməsi, baxılması, qəbul edilməsi, rəsmi dərc edilməsi və qüvvəyə minməsi, normativ hüquqi akt layihəsinin məcburi hüquqi ekspertizasının, o cümlədən sui-istifadəyə məruz qalmasına dair ekspertizasının keçirilməsi qaydaları və nəticələrinin rəsmiləşdirilməsi iştirakçılara izah edilmişdir.

İnteraktiv şəkildə keçən təlimlərdə fərdi və komanda şəklində müxtəlif tapşırıqlar icra olunmuş, həmçinin sözügedən mövzularla əlaqədar iştirakçılarla fikir mübadiləsi aparılaraq praktiki tövsiyələr verilmişdir. Təlimin sonunda təlim iştirakçılarına sertifikatlar təqdim edilmişdir.

Eyni zamanda qeyd edilməlidir ki, dövlət orqanlarının (qurumlarının) əməkdaşları üçün təlimlərin keçirilməsi işinin təşkili məqsədilə Mərkəz tərəfindən Hüquq və İnsan Haqları İnstitutuna tapşırıqlar verilmiş, İnstitut tərəfindən isə öz növbəsində bu istiqamətdə mərkəzi icra hakimiyyəti orqanlarının 23 əməkdaşı, məhkəmələrin 1 əməkdaşı, yerli icra hakimiyyəti orqanlarının 99 əməkdaşı, media subyektlərinin 27 əməkdaşı, müxtəlif institutlar və akademiyaların 19 əməkdaşı, 41 vəkil və hüquqşünas, mədəniyyət sahəsində çalışan 69 əməkdaş, həmçinin 108 tələbə və gənc üçün təlimlərin keçirilməsi təmin edilmişdir.

*Normativ hüquqi aktların keyfiyyətinin artırılması məqsədilə hazırlanan materiallar*

Hesabat dövrü ərzində normativ hüquqi akt layihələrinin insan hüquqları baxımından təhlilinin və ekspertizasının keyfiyyətinin yüksəldilməsi məqsədilə Mərkəz tərəfindən "İnsan hüquqları ekspertizasının aparılmasına dair Təlimat"ın hazırlanması üzrə işlər davam etdirilmişdir. Təlimatın hazırlanması zamanı BMT-nin İnsan Hüquqlarının müdafiəsi mexanizmləri çərçivəsində Azərbaycan Respublikasına ünvanlanmış tövsiyələri, BMT-nin aidiyyəti qurumları tərəfindən hazırlanan nəşrlər, bələdçilər, hesabatlar, habelə Avropa Şurasının İnsan Hüquqlarının müdafiəsi mexanizmləri çərçivəsində Azərbaycana ünvanlanmış tövsiyələr (o cümlədən AİHM-nin qərarlarından irəli gələn tələblər) və insan hüquqları sahəsində yerli qurumların tövsiyələri (məsələn, Ombudsmanın məruzələri və hesabatları) əsas götürülür.

*Elmi-praktiki kommentariyaların hazırlanması üzrə*

Mərkəzin Nizamnaməsinə uyğun olaraq hüquqi aktların elmi-praktiki kommentariyalarının hazırlanması istiqamətində də işlər davam etdirilmişdir. Belə ki, hesabat dövründə Mərkəz tərəfindən Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 510.2-ci və 510.3-cü maddələrinin elmi-praktiki kommentariyası hazırlanaraq Mərkəzin rəsmi internet saytının müvafiq bölməsində yerləşdirilməsi təmin edilmişdir. Vəsaitdə şərh edilən normaların məqsədi, predmeti, tətbiq dairəsi və şərtləri, əsas anlayış və terminlərin izahı açıqlanmış, həmçinin hüquq tətbiqetmə təcrübəsində yarana biləcək problemlərə və ziddiyyətli məqamlara diqqət yönəltməklə onların aradan qaldırılması üsulları izah edilmişdir.[2]

*Hüquqi tərcümə işinin təşkili üzrə*

Hesabat dövrü ərzində Mərkəz tərəfindən peşəkar hüquqi tərcümə işinin səmərəli təşkil edilməsi də diqqətdə saxlanılmışdır. Belə ki, hər il Mərkəz tərəfindən Azərbaycan Respublikasının qoşulduğu, lakin Azərbaycan dilində tərcüməsi olmayan beynəlxalq müqavilələrin tərcüməsi həyata keçirilir. Müvafiq tərcümələr tamamlandıqdan sonra onların rəsmi mətnə uyğunluğunun (autentikliyinin) təsdiq edilməsi üçün Xarici İşlər

[2] https://heqt.gov.az/upload/hazirlanmis-senedler/aze/1-ixm-510-2-ve-510-3-cu-maddelere-dair-kommentariya-12-05-2026-publicized_FILE_9B08A9-1DE798-1C3998-CF02F5-448E10-A5FF5E.pdf

Nazirliyinə müraciət edilir və daha sonra Ədliyyə Nazirliyi vasitəsilə Hüquqi Aktların Dövlət Reyestrində yerləşdirilməsi təmin olunur.

Bununla əlaqədar hesabat dövrü ərzində aşağıda adları qeyd olunan **7** beynəlxalq sənədin tərcümə edilməsi üzrə işlər davam etdirilmişdir:

1) "Mülki və siyasi hüquqlar haqqında" Beynəlxalq Paktın ölüm cəzasının ləğvinə yönəlmiş İkinci Fakultativ Protokolu;

2) "Dövlətlər və digər dövlətlərin vətəndaşları arasında investisiya mübahisələrinin həlli haqqında" Konvensiya;

3) "Ədəbi və bədii əsərlərin qorunması haqqında" Bern Konvensiyası;

4) "İqtisadi, sosial və mədəni hüquqlar haqqında" Beynəlxalq Pakt;

5) "İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" Konvensiya;

6) "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə" Konvensiya;

7) "Uşaq hüquqlarına dair" Konvensiya.

*Hüquqi maarifləndirmə işinin aparılması üzrə*

Mərkəzdə könüllülük fəaliyyətinə cəlb edilən təcrübəçilər könüllülük fəaliyyətləri çərçivəsində Mərkəzin fəaliyyəti, hüquqi akt layihələrinin hazırlanması, normayaratma texnikası, hüquqi ekspertizanın aparılması prosesi ilə tanış olur, müxtəlif məsələlərlə bağlı beynəlxalq təcrübənin araşdırılması, təhlili, habelə bir sıra sənədlərin hazırlanması işinə cəlb edilirlər.



Qeyd edilənə əsasən normayaratma fəaliyyəti və hüquq normalarının tətbiqi sahəsində tələbə və yeni məzun olmuş hüquqşünasların könüllülük proqramına cəlb edilməsi barədə müxtəlif internet resurslarında yerləşdirilmiş elanla əlaqədar daxil olmuş müraciətlər araşdırılmış və könüllülük proqramında iştirak üçün ayrı-ayrı vaxtlarda ən uyğun 2 namizəd seçilmişdir. Onlardan biri Mərkəzin İcraçı direktorunun müvafiq əmrinə əsasən Mərkəzdə normayaratma fəaliyyəti və hüquq normalarının tətbiqi sahəsində cari ilin fevral-mart aylarında təcrübə keçmək üçün Mərkəzin müvafiq şöbəsinə yönləndirilmişdir. Təcrübə proqramını uğurla başa vuran tələbəyə Mərkəzin İcraçı direktorunun müavini tərəfindən sertifikat təqdim edilmişdir. Digər təcrübəçinin isə Mərkəzin müvafiq şöbəsində könüllülük fəaliyyəti davam edir.

Hesabat dövründə həmçinin Mərkəzin fəaliyyəti barədə ictimaiyyətin məlumatlandırılması məqsədilə Mərkəzin rəsmi internet səhifəsində və sosial media

hesablarında məlumatların paylaşılması təmin edilmişdir. Nəticədə, cari ilin əvvəlindən Mərkəzin rəsmi internet saytına 8 000-dən artıq giriş olmuşdur. Eyni zamanda, Mərkəzin rəsmi internet saytındakı paylaşımlara 19 000-dən, müvafiq sosial şəbəkələrdəki (Facebook, Instagram, Linkedin və X) paylaşımlara isə 90 000-dən çox baxış qeydə alınmışdır.

*<u>Mərkəzin əməkdaşlarının bilik və bacarıqlarının təkmilləşdirilməsi üzrə</u>*

Hesabat dövrü ərzində Mərkəzin əməkdaşlarının bilik və bacarıqlarının təkmilləşdirilməsi üzrə **2** təlim keçirilmişdir.

Belə ki, cari ilin 12 yanvar tarixində Mərkəzin əməkdaşları üçün daha effektiv və məqsədyönlü fəaliyyətin təşviqi məqsədilə “Soft skills” (Yumşaq bacarıqlar) proqramının keçirilməsinə başlanılmış və proqram 2 mart tarixində başa çatmışdır. Təlimdə Mərkəzin əməkdaşları ilə yanaşı Hüquq və İnsan Haqları İnstitutunun əməkdaşları da iştirak etmişlər. İnteraktiv formatda təşkil olunan təlimlər çərçivəsində iştirakçılar özünütanıma, komanda işi, emosional intellekt, empatiya, tənqidi təfəkkür, iş mühitində effektiv sual vermə və qərarvermə bacarıqları üzrə nəzəri biliklər əldə etmiş, real iş mühitinə uyğunlaşdırılmış praktiki tapşırıqlar və komanda işləri vasitəsilə həmin bilikləri tətbiq etmişlər. Proqramı uğurla tamamlayan əməkdaşlara sertifikatlar təqdim edilmişdir.

Eyni zamanda cari ilin 4 iyun tarixində Mərkəzin əməkdaşları üçün “Süni İntellekt Alətləri və Onların Tətbiqi” mövzusunda silsilə təlimlərin keçirilməsinə başlanılmışdır. Təlimin əsas məqsədi Mərkəzin əməkdaşlarını təcrübədə geniş tətbiq olunan süni intellekt alətləri və onların əsas funksionallığı ilə tanış etmək, həmin alətlərin gündəlik iş prosesində praktiki tətbiqi imkanlarını göstərmək, süni intellektdən istifadə effektivliyini artırmaq, habelə əməkdaşların bu sahədə praktiki bilik və bacarıqlarını formalaşdırmaqdır. Təlimlər çərçivəsində əməkdaşlara mətn və ofis işləri, şəkil və dizayn, səs və videokonfrans, eləcə də effektiv hüquqi tədqiqat sahələrində daha geniş istifadə edilən süni intellekt alətləri ilə bağlı məlumat veriləcək, bu istiqamətdə praktiki bilik və bacarıqlarının inkişafına dəstək göstəriləcək.

*<u>Təltiflər</u>*



Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədrinin 2026-cı il 28 yanvar tarixli Sərəncamı ilə Mərkəzin İcraçı direktoru Samir Mahmudov “Azərbaycan Respublikası Konstitusiyasının 30 illiyi (1995-2025)” Azərbaycan Respublikasının yubiley medalı ilə təltif edilmişdir. Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev tərəfindən İcraçı direktora

ünvanlanan təbrik məktubunda Konstitusiyanın aliliyinin təmin edilməsinə onun verdiyi xüsusi töhfələrin təqdirəlayiq olduğu qeyd olunmuşdur. Medalı Konstitusiya Məhkəməsinin Aparat rəhbərinin müavini Ziya Qasımov İcraçı direktora təqdim etmişdir.

*Mərkəzin təmsil olunduğu müxtəlif tədbirlər*

Cari ilin 5 fevral tarixində Mərkəzin İcraçı direktoru Samir Mahmudov PAŞA Holding və onun törəmə şirkətləri tərəfindən təşkil edilən, hüquq sahəsində peşəkarları, ekspertləri və texnologiya liderlərini bir araya gətirən “LEGIS Hüquq Forumu”nda iştirak edib. Artıq ikinci ildir ki, Bakıda keçirilən forumun məqsədi dövlət-özəl sektorları arasında hüquq mövzusu üzrə əməkdaşlığı daha da təşviq etmək, hüquq mütəxəssisləri üçün bilik mübadiləsi təşkil etmək, əsas qanunvericilik islahatlarını müzakirə etmək və mövcud hüquqi boşluqları dəyərləndirmək üçün dinamik bir platforma yaratmaqdır.

Cari ilin 16-17 mart tarixlərində isə Mərkəzin İcraçı direktoru Samir Mahmudov ATƏT-in İsveçrə sədrliyi tərəfindən Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun dəstəyi ilə Vyanada təşkil olunan İnsan ölçüsü üzrə birinci əlavə görüşündə (İÖƏG) iştirak edib. Tədbirin üçüncü sessiyasında çıxış edən Samir Mahmudov Azərbaycanda normayaratma fəaliyyətinin keyfiyyətinin, şəffaflığının və inklüzivliyinin artırılması istiqamətində son illərdə görülmüş institusional və metodoloji yeniliklərdən danışıb. Eyni zamanda məhkəmə hakimiyyətinin qanunvericilik prosesində iştirakı məsələsinə toxunan Samir Mahmudov Azərbaycanda məhkəmələrin bu sahədə fəaliyyətinin yalnız qanunların Konstitusiyaya uyğunluğunun yoxlanılması ilə məhdudlaşmadığını və daha geniş olduğunu qeyd edib. Buna misal olaraq, o, “Azərbaycan Respublikasının Mülki Məcəlləsinin təkmilləşdirilməsi üzrə işçi qrupu”nun fəaliyyəti çərçivəsində məhkəmələrin bilavasitə qanun layihələrinin tərtibi prosesində mühüm töhfə verdiyini vurğulayıb.




Cari ilin 23-24 aprel tarixlərində Mərkəzin Publik hüququn ekspertizası şöbəsinin müdiri Ofelya Bayramlı Moldova Respublikasının Kişinyov şəhərində keçirilən “Hakim və prokurorların təlimi vasitəsilə gender bərabərliyinin təşviqi” mövzusunda beynəlxalq konfransda iştirak edib. Konfrans Avropa İttifaqı və Avropa Şurasının birgə “Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq” proqramı çərçivəsində həyata keçirilən “Qadınların ədalətə çıxışı – Avropa Şurasının gender bərabərliyi və qadınlara



qarşı zorakılıqla bağlı standartlarının həyata keçirilməsi” adlı regional layihə çərçivəsində təşkil olunmuşdur. Konfransda müxtəlif ölkələrdən məhkəmə təlim institutları, məhkəmə və prokurorluq şuraları, hakimlər, prokurorlar, vətəndaş cəmiyyəti və digər maraqlı tərəflər iştirak ediblər.

Cari ilin 24 aprel tarixində Mərkəzin İcraçı direktorunun müavini Kamalə Paşayeva Hüquq və İnsan Haqları İnstitutunda keçirilən hüquq elminin inkişafına mühüm töhfələr vermiş — Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Beynəlxalq ümumi hüquq kafedrasının müdiri, professor Rüstəm Məmmədovun və Kriminalistika və məhkəmə ekspertizası kafedrasının müdiri, professor Kamil Səlimovun 70 illik yubileylərinə həsr olunmuş tədbirdə iştirak edib. Tədbirdə çıxış edən Kamalə Paşayeva yubilyarları təbrik edərək bildirmişdir ki, hər iki alim ölkəmizdə hüquq elminin və hüquq təhsilinin inkişafında, eləcə də, yüksək ixtisaslı hüquqşünas kadrların hazırlanmasında mühüm rol oynayıb. Tədbirdə Məhkəmə-Hüquq Şurası, Konstitusiya Məhkəməsi, Vəkillər Kollegiyası, Dövlət Vergi Xidməti, həmçinin Mediasiya Şurasının nümayəndələri və bir sıra ali təhsil müəssisələrinin professor-müəllim heyəti, o cümlədən hüquqşünas alimlər də iştirak ediblər.





Cari ilin 6 may tarixində Konstitusiya Məhkəməsində Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 103-cü ildönümünə həsr edilmiş “İnsan hüquq və azadlıqlarının qorunması üçün milli mexanizmlərin effektivliyi: Konstitusiya hüquq sisteminin əsası kimi” mövzusunda keçirilmiş dəyirmi masa tədbirində Mərkəzin İcraçı direktoru Samir Mahmudov da iştirak edib. Tədbirdə çıxış edən Samir Mahmudov Ulu Öndərin Azərbaycana rəhbərlik etdiyi dövrdə uzaqgörənliklə atılmış strateji addımlar, əsası qoyulan güclü sosial, mədəni, iqtisadi və intellektual sərmayələrə diqqət çəkib, aparılan uzaqgörən siyasətin ölkənin davamlı inkişafının əsasını təşkil etdiyini bildirib. Dəyirmi masada İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) Səbinə Əliyeva, Hüquq və İnsan Haqları İnstitutunun İdarə Heyətinin sədri Məhəmməd Quluzadə, Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin, eləcə də Hüquq və İnsan Haqları İnstitutunun nümayəndələri, Konstitusiya Məhkəməsi və

Ombudsman Aparatının məsul şəxsləri iştirak edib. Tədbir çərçivəsində müxtəlif hüquqi mövzular üzrə məruzələr dinlənilib, geniş fikir mübadiləsi aparılıb.

Cari ilin 7 may tarixində Hüquq və İnsan Haqları İnstitutunun təşkilatçılığı ilə "e-huquqshunas.az" hüquq məlumat portalının rəsmi təqdimat mərasimi keçirilib. Təqdimat zamanı iştirakçılara portalın funksionallığı, istifadə imkanları və gələcək inkişaf istiqamətləri barədə ətraflı məlumat təqdim olunub. Tədbirdə Azərbaycan Respublikasının Prezident Administrasiyası, Milli Məclis, Məhkəmə-Hüquq Şurası, Ədliyyə Nazirliyi, Vəkillər Kollegiyası, ali təhsil müəssisələrinin hüquq fakültələrinin professor-müəllim heyəti və peşəkar hüquqşünaslar iştirak ediblər. Portal Mərkəzin təşəbbüsü ilə yaradılıb və onun tabeliyində fəaliyyət göstərən Hüquq və İnsan Haqları İnstitutu tərəfindən idarə olunur. Saytın əsas fəaliyyət fəlsəfəsini hüququn aliliyinin təşviqi, hüquqi savadlılığın artırılması, demokratik dəyərlərin inkişafına dəstək verilməsi və hüquqi maarifləndirmə vasitəsilə cəmiyyətin inkişafına töhfə verilməsi təşkil edir.




Cari ilin 10 iyun tarixində Mərkəzin İcraçı direktoru Samir Mahmudov və Publik hüququn ekspertizası şöbəsinin müdiri Ofelya Bayramlı Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşəbbüsü ilə hazırlanan Azərbaycanda yeniyetmələrin hüquq düşüncəsinə dair tədqiqatın və "Uşaq hüquqları" kitabının təqdimat mərasimində iştirak edib.

Samir Mahmudov çıxışı zamanı uşaqlarda hüquq anlayışının erkən yaşlardan formalaşdırılmasının xüsusi əhəmiyyət daşıdığını vurğulayıb, bu prosesdə ailənin, xüsusilə valideynlərin roluna diqqət çəkib.

Eyni zamanda hüquqi maarifləndirmənin genişləndirilməsinin vacibliyini qeyd edən İcraçı direktor bu istiqamətdə həyata keçirilən təşəbbüs və kampaniyaların əhəmiyyətindən danışıb, təqdim olunan tədqiqat işi və kitabı mühüm elmi mənbə kimi qiymətləndirib. Tədbir çərçivəsində səsləndirilən fikirlər uşaqların hüquqi biliklərinin artırılması, hüquq şüurunun formalaşdırılması və bu istiqamətdə dövlət, ictimaiyyət və aidiyyəti qurumlar arasında əməkdaşlığın daha da



gücləndirilməsinin vacibliyini bir daha ön plana çıxarıb.

Cari ilin 12 iyun tarixində Mərkəzin Qanunvericilik təşəbbüsləri və monitorinq şöbəsinin müdiri Nurani Rüstəmli Ali Məhkəmə yanında Elmi-məsləhət şurasının növbəti iclasında iştirak edib.



İclasda "Məhkəmələr tərəfindən mübahisələrə baxılarkən inzibati praktikada bərabər yanaşma və etimad hüququnun qorunması prinsiplərinin tətbiqi" mövzusunda müzakirələr aparılıb. Ali Məhkəmənin hakimləri, inzibati orqanların nümayəndələri, vəkillər, alim və hüquqşünas ekspertlər, eləcə də ad-hoc üzvlərinin iştirak etdiyi iclasda etimadın qorunması prinsipinin mahiyyəti və tətbiqi, inzibati praktikanın anlayışı və bununla əlaqədar digər məsələlər ətrafında geniş müzakirələr aparılıb, iştirakçıların çıxışları dinlənilib. İclasda çıxış edən Nurani Rüstəmli müzakirə olunan məsələlərə mövzu üzrə Mərkəz tərəfindən hazırlanmış mülahizələrə uyğun münasibət bildirib, etimad hüququnun qorunması və inzibati praktikanın tətbiqi ilə bağlı fikirlərini bölüşüb.

Ümumilikdə, hesabat dövrü ərzində Mərkəz **12** müxtəlif tədbirdə təmsil olunmuşdur.

*Mərkəzə daxil olmuş müraciətlər üzrə*

Son olaraq qeyd edilməlidir ki, hesabat dövründə mərkəzi və yerli icra hakimiyyəti orqanlarından, digər qurumlardan və vətəndaşlardan Mərkəzə ümumilikdə 225 sənəd daxil olmuş, müvafiq müraciətlər qanunvericiliyə uyğun olaraq cavablandırılmışdır.

**Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzi**